# ƏFQANISTANDA YAŞAYAN AZƏRBAYCAN ƏSİLLİ ƏHALİ: TARİXİ-MƏDƏNİ VƏ DEMOQRAFİK VƏZİYYƏTİ

**Mübariz Ağalarlı**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, Azərbaycan
E-mail: mubariz.aqalar@gmail.com

*https://doi.org/10.59849/iscapltmt.2024.217*

**Xülasə.** Geosiyasi və strateji əhəmiyyətinə görə Cənub-Şərqi Asiyanın əhəmiyyətli bölgələrindən biri olan Əfqanıstan həmişə böyük dövlətlərin siyasi maraq dairəsində olmuş, bu səbəbdən bölgə zaman-zaman hərbi-siyasi və daxili münaqişələr meydanına çevrilmişdir. Əfqanıstan çoxmillətli ölkədir. Burada heç bir xalq və yaxud etnik qrup ümumi əhali üzərində dominantlıq təşkil etmir. Hal-hazırda Əfqanıstanda 60-dan çox etnik qrup və xalq yaşayır. Rəsmi məlumatlara istinadən 35 milyon, qeyri-rəsmi məlumatlara görə isə 40 milyona yaxın əhalisi olan ölkədə yalnız qarşılıqlı nisbətdə üstünlüyə sahib beş böyük xalq vardır (puştunlar – 12 miliyon, taciklər – 9 milyon, özbəklər – 8 milyon, həzaralar – 6 milyon, türkmənlər – 2 milyon). Əfqanıstanda digər azsaylı xalqlar (qızılbaşlar, əfşarlar, qacarlar, tatarlar, qaraqalpaqlar, qazaxlar, bəluclar və s.) 3 milyon nəfər ətrafında göstərilir.
Beynəlxalq təşkilatların verdiyi məlumatlarda isə Əfqanıstan əhalisinin etnik bölgüsü bu şəkildədir: Puştunlar – 42%, Taciklər – 27%, Hazarilər – 9%, Özbəklər – 9%, Aymaqlar – 4%, Türkmənlər – 3%, Bəluclar – 2%, digərləri – 4%.
Rəsmi və beynəlxalq təşkilatların verdiyi məlumatlarda Əfqanıstanın türkdilli əhalisinin sayı azaldılsa da, Əfqanıstandakı yerli icma rəhbərlərinin məlumatlarına görə, ölkədə yaşayan türk əsilli əhali ümumi əhalinin təxminən 35-40 faizini təşkil edir. Bu bölgüdə özbəklər – 19 faiz; türkmənlər - 10 faiz; Azərbaycan əsilli əhali (qızılbaşlar, mərvilər, bayatlar, timurlular, cəmşidilər, səlcuqlar, əfşarlar, qacarlar) – 5 faiz; qırğızlar, tatarlar, qaraqalpaqlar, qazaxlar və digərləri – 3 faiz təşkil edir. Xüsusilə qeyd etmək lazımdır ki, Əfqanıstanda son onilliklər ərzində müharibələr və etnik münaqişələr səbəbindən bütün ölkəni əhatə edən siyahıyaalma aparılmadığından əhalinin etnik say bölgüsü və ümumi əhali sayı haqqında dəqiq rəsmi məlumatlar yoxdur.
**Açar sözlər:** Əfqanıstan, Azərbaycan əsilli əhali, qızılbaşlar, mərvilər, bayatlar, əfşarlar, qacarlar, tarix, mədəniyyət

## Azerbaijani population in Afghanistan: historical, cultural, and demographic status

**Mubariz Aghalarly**
Doctor of Philosophy in Philological sciences, associate professor
Institute of History and Ethnology named after A.A.Bakikhanovof ANAS, Azerbaijan
E-mail: mubariz.aqalar@gmail.com

**Abstract.** Afghanistan, one of the significant regions of South-East Asia due to its geopolitical and strategic importance, has always been within the political interest of major powers, turning the area into a battleground for military-political and internal conflicts over time. Afghanistan is a multiethnic country where no single ethnic group dominates the total population. Currently, there are over 60 ethnic groups in Afghanistan. According to official data, the country has a population of 35 million, while unofficial data estimates it to be around 40 million. Five major ethnic groups collectively hold a relative numerical superiority (Pashtuns – 12 million, Tajiks – 9 million, Uzbeks – 8 million,

Hazaras – 6 million, Turkmens – 2 million). Other smaller ethnic groups (Qizilbash, Afshars, Qajars, Tatars, Karakalpaks, Kazakhs, Balochs, etc.) are estimated to be around 3 million.
According to data from international organizations, the ethnic distribution of Afghanistan's population is as follows: Pashtuns – 42%, Tajiks – 27%, Hazaras – 9%, Uzbeks – 9%, Aimaqs – 4%, Turkmens – 3%, Balochs – 2%, others – 4%.
Although the number of Turkic-speaking people in Afghanistan is underestimated in official and international statistics, local community leaders claim that the Turkic-origin population constitutes approximately 35-40% of the country's total population. Within this distribution, Uzbeks represent 19%, Turkmens 10%, Azerbaijani-origin populations (Qizilbash, Marvi, Bayat, Timurids, Jamshidis, Seljuks, Afshars, Qajars) 5%, and others, including Kyrgyz, Tatars, Karakalpaks, and Kazakhs, 3%.
It is important to note that due to wars and ethnic conflicts over the decades, no comprehensive census covering the entire country has been conducted, and thus, there are no precise official data on the ethnic composition or total population of Afghanistan.
**Keywords:** Afghanistan, Azerbaijani population, Qizilbash, Marvi, Bayat, Afshar, Qajar, history, culture

Cənub-Şərqi Asiyanın geosiyasi əhəmiyyət daşıyan bölgələrindən biri olan Əfqanıstan, Şərq və cənubda Pakistan, qərbdə İran, şimalda Türkmənistan, Özbəkistan və Tacikistan, şimal-şərqdə isə Çin Xalq Respublikası ilə həmsərhəd olaraq 652.860 kvadrat km əraziyə malikdir. Əfqanıstan çoxmillətli ölkədir. Burada 60-dan çox etnik qrup və xalq yaşayır.

Rəsmi məlumatlara istinadən 35 milyon, qeyri-rəsmi məlumatlara görə isə 40 milyona yaxın əhalisi olan ölkədə yalnız qarşılıqlı nisbətdə üstünlüyə sahib beş böyük xalq vardır (puştunlar – 12 milyon, taciklər – 9 milyon, özbəklər – 8 milyon, həzaralar – 6 milyon, türkmənlər – 2 milyon). Əfqanıstanda digər azsaylı xalqlar – qızılbaşlar, əfşarlar, qacarlar, tatarlar, qaraqalpaqlar, qazaxlar, bəluclar və s. 3 milyon nəfər ətrafında göstərilir.

Beynəlxalq təşkilatların verdiyi məlumatlarda isə Əfqanıstan əhalisinin etnik bölgüsü bu şəkildədir: Puştunlar – 42%, Taciklər – 27%, Hazarilər – 9%, Özbəklər – 9%, Aymaqlar – 4%, Türkmənlər – 3%, Bəluclar – 2%, digərləri – 4%.

Əfqanıstanda son onilliklər ərzində müharibələr və etnik münaqişələr səbəbindən ümum ölkə ərazisini əhatə edən siyahıyaalma aparılmadığından əhalinin etnik tərkibinə görə demoqrafik vəziyyəti və ümumi əhali sayı haqqında dəqiq məlumatlar yoxdur. Bütün rəqəmlər müxtəlif mənbələrin qeyri-rəsmi təxmininə əsaslanır. Avropanın "müstəqil sosial təşkilatları" Əfqanıstanda türk kökənli əhalinin sayını öz rəsmi məlumatlarında süni şəkildə azaldırlar. Qərb mənbələrinin verdiyi dəqiq olmayan təxmini statistik məlumatlara görə, Əfqanıstanda türk kökənli xalqlar ölkə əhalisinin təxminən 12 faizini təşkil edirlər (özbəklər 9 faiz, türkmənlər – 3 faiz) [8].

Əfqanıstandakı azsaylı xalqların icma rəhbərlərinin məlumatlarına əsasən, bütün türk əsilli xalqlar Əfqanıstan əhalisi içində təxminən 35-40 faizlik paya sahibdirlər. Əhalinin bu etnik bölgüsündə özbəklər – 19 faiz; türkmənlər – 10 faiz; Azərbaycan kökənli əhali (qızılbaşlar, mərvilər, bayatlar, timurlular, cəmşidilər, səlcuqlar, əfşarlar, qacarlar) – 5 faiz; qırğızlar, tatarlar, qaraqalpaqlar, qazaxlar və digərləri – 3 faiz təşkil edir.

Taliban rejimi hakimiyyətə gələndən sonra da ümum ölkə ərazisində rəsmi siyahıyaalma aparılmasa da, bir il öncə (31.03. 2022-ci il tarixində rəsmi məlumat) Əfqanıstan Dövlət Statistika Komitəsinin sədr müavini Həsibullah Mohed rəsmi olaraq bəyan etmişdir ki, "Əfqanıstanda 34,3 milyon əhali yaşayır. Bu əhalinin 51% -i – 17,5 milyonu kişi, 49%-i – 16,8 milyonu qadındır. Əfqanıstan dövlətinin rəsmi statistikasına görə, əhalinin 3,73 faizi Kabil şəhərində, 3,24 faizi isə digər Herat, Məzari-Şərif, Qəndəhar, Qunduz, Cəlalabad kimi böyük şəhərlərdə yaşayır. Nəsibullah Mohedin məlumatına görə, Əfqanıstan əhalisinin 24,2 milyon nəfəri (70,6%) kəndlərdə, 8,6 milyonu

(25%) şəhərlərdə (böyük və kiçik şəhərlərdə) yaşayır. Əhalinin 4,4% isə köçəri həyat sürür. Əhalinin 47,5%-ni 15 yaşına qədər olan şəxslər təşkil edir [10].

Əfqanıstanın rəsmi dövlət adı Əfqanıstan İslam Əmirliyi (İmarət-i İslami-i Əfqanıstan) adlanır. Hakimiyyətdə Taliban siyasi birliyidir. Hal-hazırda idarəetmə forması unitar müvəqqəti teokratik islam əmirliydir. Ali rəhbər Heybətulla Axundzadə Əfqanıstanın siyasi və dini lideri, Əfqanıstan İslam Əmirliyinin rəhbəridir. Hökumətin başında isə Baş nazir Məhəmməd Həsən Axund dayanır. İslam dövləti olan Əfqanıstan əhalisinin dini inanc sistemi, əsasən, sünni və şiə məzhəbi üzərində qurulmuşdur. Bu ölkədə hazırda bürokratik aparatda söz sahibi olan puştunlar və taciklər, həmçinin özbəklər, türkmənlər, bəluclar sünni məzhəbli, hazarilər və Azərbaycan kökənli – əfşar, qacar, qızılbaş, timuri, cəlili, səlcuqlu və mərvilər isə şiə məzhəblidirlər.

Zəngin təbii sərvətləri olan, geniş turizm imkanlarına malik, böyük ipək yolu vasitəsilə Şərqlə Qərbi birləşdirən Əfqanıstanda uzun illər boyu baş verən hərbi-siyasi münaqişələr cəmiyyətin siyasi və iqtisadi inkişafına ciddi zərbə vursa da, ölkə özünəməxsus mədəniyyəti, ənənəvi dəyərləri, xüsusilə də etnik müxtəlifliyi ilə həmişə diqqət mərkəzindədir.

**1. Azərbaycan əsilli əhalinin Əfqanıstanda məskunlaşması**

Müasir dövrdə Əfqanıstanda yaşayan Azərbaycan əsilli əhali, əsasən, əfşar, qacar, qızılbaş, timuri, cəlili, səlcuqlu və mərvi adları ilə tanınmaqdadır. Burada yaşayan özünü Azərbaycan kökənli hesab edən bu etnik qruplar arasında əfşarlar, mərvilər və qızılbaşlar siyasi və mədəni baxımdan xüsusi çəkiyə malikdirlər.

Qeyd edək ki, Əfqanıstanda yaşayan etnik Azərbaycan kökənli əhalinin bu bölgəyə gəlişi XI-XII əsrlərə təsadüf edir. Azərbaycan dövlətçilik tarixində mühüm rol oynayan oğuz mənşəli əfşar türkləri Əfqanıstana XI-XII əsrlərdə səlcuq türkləri ilə birlikdə gəlib.

XVIII əsrdə Əfşar Türk dövlətinin qurucusu Nadir Şah Əfşar tərəfindən Güney Azərbaycanın Urmiya və Həmədan bölgələrindən xeyli Azərbaycan əsilli əhali (əsasən, Əfşarlar və Qızılbaşlar – M.A.) Əfqanıstana köçürülüb. Onlar Əfqansıtanın Kabil və Herat şəhərləri və bu şəhərlərin ətraf ərazilərində, həmçinin Qəndəhar şəhərinin ətraf bölgələrində yerləşdiriliblər. Bu bölgələrə köçürülən əfşarlar şiə məzhəbli olsalar da, özlərinin ələvi dini (Qızılbaş inancı – M.A.) inancını saxlamışlar. 1993-cü il 11-12 fevralın 11-12-də əfşar məhəllələrində gerçəkləşdirilən qətliamlar zamanı 1000 nəfərədək insan həlak olmuşdur. Əfqanıstanda yaşayan əfşar türklərinin sayının təxminən 10 min nəfərə yaxın olduğu göstərilsə də, qeyri-rəsmi məlumatlarda onların sayının daha çox olduğu qeyd olunur [13].

Məlumdur ki, Nadir şah hakimiyyətə gəldikdən (1736-1747) sonra Qarabağ bölgəsində böyük nüfuz sahibi olan bir çox tayfalar Əfşar imperiyasının şərq bölgələrinə köçürülmüşdür [1, s. 348].

Mirzə Adıgözəl bəy özünün "Qarabağnaməsində" qeyd edir ki, "Cavanşir, Otuziki və Kəbirlidən ibarət Qarabağ elləri haqqında da, icrası vacib olan fərman çıxdı ki, onları köçürüb Xorasanın Sərəxs torpağına aparsınlar. Onlara orada yer və məskən təyin etsinlər..." [11, s. 36-37].

Mirzə Adıgözəl bəy əsərində eyni zamanda köçürülənlər arasında Gürcüstan ellərindən olanları da qeyd edir. Müəllif yazır: "Cavanşir, Kəbirli, Otuziki və Gürcüstan ellərini Nadir şah Xorasana sürgün etmişdi" [11, s. 39].

Nadir şah Əfşarın dövründə (1736-1747) Qarabağ bölgəsindən köçürülən əhali, əsasən, kəbirli, qacar, cavanşir, bayat, otuzikilər nəslinə mənsub olmuşlar. Onlar Mərv, Qəndəhar, Qəznə, Sərəxs bölgələrində yerləşdirilmişdir.

Nadir şah Əfşarın dövründə Azərbaycanın Qarabağ bölgəsindən Mərv şəhərinə köçürülən Qarabağlılar 1750-ci illərdən sonra özbək-əfqan hərbi münaqişələri zəminində Herat şəhərinə köçməyə məcbur olmuşlar. Məhz Mərv şəhərindən Herata gəldikləri üçün burada mərvilər kimi tanınırlar. Qarabağdan köçürülən soydaşlarımızın bir hissəsi öz dillərini unudaraq əfqan dilində – dəri (dari) dilində danışsalar da, mərvilər öz ana dilini – Azərbaycan dilini qoruyub saxlamışlar. Mərvilər, əsasən, Əfqanıstanın Şəkiban adlı bir qəsəbəsində yaşayır və 17.000-18.000 nəfərdən ibarətdir.

Mərvilər öz dillərini, mədəniyyətini və etnik kimliklərini qoruyub saxlamışlar. Həmçinin hazırda mərvilərin bir hissəsi İranın Turbat Cam və Heydəri Turbat bölgələrində, Tərəbət Cəm və Mahmudabad kəndlərində yaşayırlar. Qeyd edək ki, Səfəvilər və Əfşarların hakimiyyəti dövründə, Azərbaycandan köçürülən əhali arasından çıxan məmurlar Mərv, Herat, Qəndəhar və digər ərazilərdə əyalət hakimləri vəzifəsində çalışmış, yüksək mənsəb sahibi kimi geniş imtiyazlara sahib olmuşlar.

Əfqanıstanda Azərbaycan kökənli aparıcı etnik qrupladan biri də Qızılbaşlardır. XVII əsrin əvvəllərində Azərbaycan Səfəvi hökmdarı Şah I Abbas tərəfindən imperiyanın Şərq sərhədlərini qorumaq və etnik dayaq yaratmaq məqsədilə Əfqanıstan ərazisində bi çox türksoylu etnoslar, xüsusilə də qızılbaşlar məskunlaşdırılmışdır. Bu proses (Qızılbaşların Əfqanıstana köçü – M.A.) 1738-ci ildən sonra Nadir şah və Abdallı Əhməd şah Durrani (ilk əfqan şahı) tərəfindən də davam etdirilmişdir. Qızılbaşlar, Nadir şahın mühafizəçisi və sonralar Əfqanıstan dövlətini quran Əhməd şah Dürraninin sarayında çox böyük güc və nüfuz sahibi olmuşlar. Bu isə Əfqanıstandakı hakim Puştunlar arasında narazılığa səbəb olmuşdu. İllər keçdikcə, xüsusilə I İngilis-Əfqan savaşında (1832-1842) Qızılbaşların açıq şəkildə ingilislərlə itttifaqa girməsi onların Puştun əmiri Əbdürrəhmanın qəzəbinə tüş gəlmələri ilə nəticələnmişdi. 1891-1893-cü illərdə Qızılbaşlar Puştunların təqib və təzyiqlərinə məruz qalmışdır. Bu gün Əfqanıstanda yaşayan Qızılbaşlar Əfqanıstanın ən savadlı kəsimi sayılır və bir çox dövlət işlərində çalışırlar. Qızılbaşların sayının 400 mindən çox olduğu bildirilir. Lakin onların dəqiq sayı barədə məlumat yoxdur. Dini ayrı-seçkilik və siyasi təzyiqlərə məruz qaldıqları üçün qızılbaşların bir çoxu özlərini sünni tacik kimi qələmə verirlər [12].

Etnik mənşəcə Azərbaycan əsilli olan Qızılbaşların böyük əksəriyyəti azəri türkcəsini unudaraq Dəri (fars) və Tacik dillərində danışırlar. Lakin bir qismi isə öz dillərini qorumuşlar. Kabil ətrafı (şimal hissədə), paytaxtın Çandavul rayonu, Herat şəhərində yaşayan qızılbaşlar Azərbaycan türkcəsinin xüsusi bir şivəsində danışırlar. Əfqanıstan mənbələrinə görə, qızılbaşlar Kabil, Qəznə, Qəndəhar, Herat və digər iri şəhərlərdə cəmləşmişlər [14, s. 242; 4, s. 56; 7, s. 87].

Qızılbaşlar Əfqanıstan Konstitusiyasında rəsmi olaraq etnik qrup kimi tanındığı üçün onların da adı dövlət himnində ifadə olunmuşdur:

*Bura Əfqanıstan ölkəsidir,*
*Hər Əfqanın izzətidir*
*Sülh evi, qılınc evi*
*Hər bir uşağı qəhrəmandır.*

*Bu ölkə hamının evidir,*
*Bəlucların və Özbəklərin*
*Puştunların və Həzaraların,*
*Türkmənlərin və Taciklərin.*

*Onlarla birlikdə Ərəblərin və Qucarların,*
*Pamirilərin, Nuristanlıların*
*Brahuilərin, və Qızılbaşların,*
*Həm də Aymaqların və Paşayilərin.*

Qeyd edək ki, tarixi qaynaqlarda azərbaycanlı məmurların Əfqanıstanda əyalət hakimləri olması haqqında məlumatlar vardır. 1737-1739-cu illərdə Hindistan üzərinə yürüş edən Nadir şah Əfşar bu bölgələrdə öz hakimiyyətini möhkəmləndirmək üçün Əfqanıstanda qızılbaş qoşunlarını yerləşdirdi. Hindistana yürüş edən Nadir şah Şirvan vilayətindəki qızılbaş əyanlarından olan Sərdar Əli xanı da özü ilə aparmışdır. Hindistan yürüşündən qayıdarkən Nadir şah Sərdar Əli xanı Qəndəhar valisi təyin etmişdir. Həmçinin digər qızılbaş əmirləri də əmin-amanlığı və sabitliyi təmin və

mühafizə etmək məqsədilə Kabil və Pişəvərdə hakim təyin olunmuşdular. Nadir şahın ölümündən sonra 1747-də Əfqanıstanda hakimiyyətə gələn Əhməd şah Dürrani də həmin nüfuzlu əmirlərə hərbi vəzifələr verməyə məcbur olmuşdur. Şərdar Əli xan Qəndəhardan şimalda yerləşən Xazar vilayətinə hakim təyin olunmuş və Herata qədər ətraf bölgələri özünə tabe edə bilmişdi. Əli xanın ölümündən (1770) sonra onun həyat yoldaşı bir neçə il ərzində Xazar vilayətini idarə etmişdir.

Sərdar Əli xanın oğlanları da əfqan sarayında mənsəb sahibi olmuşlar. Əfqan Əhməd şah Dürraninin oğlu və xələfi olan Timur şahın hakimiyyəti dövründə Əli xanın böyük oğlu Qul Məhəmməd xan Kabilə dəvət edilərək ona sərdar titulu verilmişdi. Əfqan hökmdarı Şah Zamanın dövründə də qızılbaşların orduda və idarəçilikdə nüfuzu davam etmiş, hətta Əli xanın oğlu Hidayət xan 1797-ci ildə Şah Zamanı Lahor yürüşündə müşayiət etmişdi. Qızılbaş əmiri Hidayət xanın ölümündən (1836) sonra onun oğlanları yüksək dövlət vəzifələrində idilər. Hidayət xanın dördüncü oğlu Əli Rza Xan Qızılbaş Kabildə böyük nüfuza malik idi. 1839-cu ildə Britaniya ordusu Kabilə daxil olduqda o, Ticarət Departamentinə Baş Agent təyin edilmişdi [15, s. 111—118].

1813-cü ildə Sərdar Əli xanın oğlanlarından ən kiçiyi Əli Məhəmməd xan dörd minlik ordu ilə əfqan vəziri Fəth xanı Kəşmirə etdiyi yürüşdə müşayiət etmiş, bu uğurlu yürüşdən sonra burada yüksək hərbi vəzifəyə təyin olunmuşdu.

**2. Əfqanıstanda türk mədəniyyəti və tarixi-memarlıq abidələri**

Yüz illər boyu türklərin hakimiyyəti altında yaşayan Əfqanıstan bölgəsində hər addımda türk mədəniyyətinin, mənəvi dəyərlərinin izlərinə rast gəlinir. Xüsusilə də Azərbaycan türklərinin – Səfəvilərin, Əfşarların və Qacarların hakimiyyəti dövründə Əfqanıstanda böyük bir mədəniyyət sistemi formalaşmışdır. Böyük karvan yollarının üzərində yerləşən, tarixlər boyu Şərq - Qərb ticarətində böyük rol oynayan Herat şəhəri öz strateji əhəmiyyətini bu gün də saxlamaqdadır. Sufilər diyarı sayılan, böyük mədəniyyət mərkəzi olan Herat şəhərində hər addımda türk mədəniyyətinin izləri, orta əsrlər Azərbaycan memarlığının, qızılbaş-türkman ənənələrinin nişanələri diqqət çəkir.

Qədim mədəniyyətə malik, min illər boyu türk-müsəlman mənəvi mühitinin tərkib hissəsi olan Əfqanıstan uzun illər boyu terrorizm yuvası və sivilizasiyadan kənar bir cəmiyyət kimi təqdim olunmuşdur. Lakin ilk növbədə, gözəl təbii-coğrafi şəraiti və mülayim iqlimi olan bu bölgə öz füsunkar təbiəti, məhsuldarlığı ilə seçilən münbit torpaqları ilə diqqəti cəlb edir. Hətta yunan tarixçisi Herodot Əfqanıstanın böyük siyasi və mədəniyyət mərkəzi olan türk şəhəri Heratın Mərkəzi Asiyanın buğda anbarı olduğunu yazmışdır.

Heratın yüksəliş dövrü Teymuri hökmdarı Şahruxun və Hüseyn Bayqaranın hakimiyyəti illərinə təsadüf edir. Sultan Şahrux qısa bir zamanda Herat şəhərini böyük, parlaq, dəbdəbəli və mədəni bir şəhərə çevirmişdi. Teymuri hökmdarları Heratda məscid, mədrəsə və karvansaraylar tikdirdi. Xiyabanlar, o cümlədən "Nəvai bağı"nı saldırdı.

Qeyd edək ki, Herat şəhərinin tikinti və abadlıq işlərində məşhur Azərbaycan memarı Hacı Əli Hafiz Təbrizi iştirak etmişdi. Azərbaycan rəssamlarından Pir Seyid Əhməd, Xacə Əli Müsəvir, Qəvaməddin Qiyasəddin və b. Herat rəssamlıq məktəbinin inkişafında mühüm xidmət göstərdilər. Səfəvilər sülaləsinin hakimiyyəti dövründə də Heratda çoxsaylı tarixi abidələr inşa edilmişdir.

Herat şəhəri, həmçinin böyük sufilər yurdu, türk təsəvvüf düşüncəsinin beşiyi sayılan Xorasan irfan məktəbinin mərkəzlərindən biridir. Türküstanda Əhməd Yəsəvi ilə başlayan türk sufiliyi, Azərbaycanda dahi Şeyx Nizami Gəncəvi, Şeyx Səfiəddin Ərdəbili, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Anadoluda Mövlanə Cəlaləddin Rumi, Balım Sultan, Yunus Əmrə, Heratda Xacə Abdulla Ənsari, Əlişir Nəvai kimi dahi şəxsiyyətlər tərəfindən inkişaf etdirilərək bütün türk-müsəlman dünyasına öz işığını yaymışdır.

Əfqanıstanın, xüsusilə də Herat səfərinin ən təsirli və yaddaqalan tərəflərindən biri də bu məkanın tarixi memarlıq abidələri ilə zəngin olmasıdır. Herat şəhərində antik dövr və türk-müsəlman memarlıq sənəti üslubunda inşa edilən memarlıq abidələri şəhərin mədəni zənginliyindən xəbər verir.

Herat şəhərinin ən qədim memarlıq komplekslərindən biri İsgəndər qalasıdır. İsgəndər qalası Makedoniyalı İsgəndər tərəfindən e.ə. 330-cu ildə Herat şəhəri ələ keçirilərkən inşa edilibdir.

Əlişir Nəvainin əsərlərindəki məlumatlarda və tarixi rəvayətlərdə qeyd olunur ki, İsgəndər Herat şəhərinə gələndə şəhərdən axan çaylardan birinin suyunu içir və suyun ətrinə və şirinliyinə görə "Mən dirilik suyunu Heratda tapdım", – deyir. Məhz bundan sonra burada qala tikməyə göstəriş verir. İsgəndər qalasının astronomik özəlliklərindən biri də qala içərisinin qalaktika ilə səma boşluğu halında olmasıdır. Qalanın ətrafında səma cisimləri sayrışsa da, qalanın içərisində heç bir səma cisminə rast gəlmək mümkün deyil.

Herat şəhərində mövcud olan memarlıq abidələri arasında XV əsrə aid olan Əmir Əlişir Nəvainin türbəsi və Teymuri sultanı Hüseyin Bayqaranın anası Gövhərşad Bəyimin və övladlarının dəfn olunduğu türbə olduqca mənəvi və ruhi təsir bağışlayır. Bir sözlə, Əmir Əlişir Nəvainin dediyi kimi, "Herat cənnətin görünən üzüdür".

Eyni zamanda Herat şəhərində Xacə Abdulla Ənsari türbəsi (XI əsr), Musalla Kompleksi (XV əsr), Mirveys Sadıq türbəsi (XVIII əsr) və onlarla digər məscidlər, türbələr, digər tarixi memarlıq abidələri vardır.

Təəssüf hissi ilə qeyd edək ki, bu abidələrin böyük əksəriyyəti, "yadellilərin" Əfqanıstan uğrunda son 40 illik müharibəsi dövründə dağıdılmış və talan edilmişdir. Son bir neçə ildə dağıdılan memarlıq abidələri yenidən bərpa edilərək öz əvvəlki əzəmətinə qaytarılmışdır [2, s. 20-21].

Paytaxt Kabildə türk memarlıq üslubunda tikilmiş Babur Şah türbəsi də türk–müsəlman memarlığının inicilərindən biri sayılır. Qeyd edək ki, Babur şah Böyük Moğol imperiyasının qurucusu və ilk hökmdarıdır. Babur Şah hökmdarlıq fəaliyyəti ilə yanaşı, türk ədəbiyyatının görkəmli nümayəndələrindən biri hesab olunur. Onun cağatay türkcəsində yazdığı və həyatından xronoloji olaraq bəhs etdiyi "Baburnamə" əsəri Türk ədəbiyyatı tarixində önəmli yerə sahibdir. Xətti Babur deyilən yazı sistemini təkmilləşdirən Babur Şah eyni zamanda Çağatay türkcəsində yazılmış ədəbiyyatın Əlişir Nəvaidən sonra ən böyük şairi hesab olunur.

Qeyd etmək lazımdır ki, Babur dövlətinin ictimai-siyasi həyatında Azərbaycan əsilli əyanların, xüsusilə Bayram xan Baharlunun böyük rolu olmuşdur. Uzun müddət ərzində Bayram xan Moğol imperiyasına göstərdiyi bütün xidmətlərin qarşılığında "Xan-i xanan" (xanlar xanı), "Etidad üd-dövlət" (dövlətin dayağı) və "Xan baba" titulları ilə bərabər, ən yüksək mənsəbə — "Vəkil üs-səltənət" (sultanlığın vəkili) adına da layiq görülür [9, s.10].

Hal-hazırda Əfqanıstanda mövcud olan coğrafi ərazilər və toponimlər arasında Azərbaycan mənşəli toponimlərə də rast gəlinir. Müxtəlif dövrlərdə Əfqanıstana köç edən Azərbaycan əsilli əhali öz toponimlərini də Əfqanıstana apararaq bu günə qədər qoruyub saxlamaqdadırlar. Əfqanıstanda yaşayan azərbaycanlılar öz etnik və siyasi kimliklərini toponimlərdə də yaşatmaqdadırlar. Onların məskunlaşdığı məntəqələr Qarabağ, Bayat, Şəki, Əfşar kimi yer adları ilə adlanır. Həmçinin hal-hazırda Əfqanıstanda Əfşar, Əfşar-təpə, Əfşar-nənəkçi, Bayat, Şahağası, Otuzikilər, Şahsevən kimi yer adları mövcuddur. Əfqanıstanda hazırda mövcud olan Qarabağ adlı iki yaşayış məntəqəsindən biri Kabil şəhərindən 60 km şimalda, Baqram aviabazasının 20 km cənub-şərqində yerləşir. Burada təxminən 20 min əhali yaşayır. İkinci Qarabağ rayonu isə Kabildən cənub-şərqdə, Qəznə vilayətinin eyniadlı mərkəzindən cənubda yerləşir. Qəznə vilayətinin 19 rayonundan biri olan Qarabağ rayonunda 60 minə yaxın əhali yaşayır. Nadir şahın dövründə Qarabağdan köç edən, hazırda Herat yaxınlığında mərvi adı ilə tanınan əhalinin yaşadığı qəsəbənin adı isə Azərbaycan toponimləri sırasında yer alan Şəki-Ban adlanır. Bu qəsəbədə 17 min nəfər əhali yaşayır.

### 3. Herat şəhərində Əfqanıstan azərbaycanlıları ilə görüş imkanı

2021-ci ilin aprel ayının əvvəllərində böyük özbək şairi və ictimai-siyasi xadim Əmir Əlişir Nəvainin 580 illik yubileyinin Əfqanıstan İslam Respublikasının Herat şəhərində təntənəli şəkildə qeyd edilməsi, Azərbaycan alimlərinin də yubiley tədbirlərinə qatılmasına və Əfqanıstanla, xüsusilə

də qədim sivilizasiya mərkəzi olan Herat şəhəri ilə tanış olmağa imkan yaratdı. 7-9 aprel 2021-ci ildə Herat şəhərində təşkil olunan Beynəlxalq konfransda Azərbaycanı AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun professoru Almaz xanım Ülvi və mən – AMEA-nın Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi, dosent Mübariz Ağalarlı təmsil edirdik. Etiraf edək ki, uzun illər istər Azərbaycanda, istərsə də dünya ölkələrində Əfqanıstan haqqında yaranan imic heç də müsbət və ürəkaçan deyildi.

Biz Əfqanıstanda olduğumuz müddətdə bu ölkənin tarixi, mədəniyyəti, real sosial-iqtisadi vəziyyəti ilə tanış olmaqla bərabər, yüz illər boyu bu torpaqlarda yaşayan soydaşlarımızla görüşmək imkanı da əldə etdik. Azərbaycan alimlərinin Əfqanıstana gəldiyini eşidən soydaşlarımız uzaq yol qət edərək bizimlə görüşmək üçün Herata gəlmişdilər. İlk öncə qeyd edək ki, Əfqanıstanda etnik azərbaycanlıların xüsusi çəkisi var. Əfqanıstanın bir çox yerinə səpələnmiş, əsasən, Herat, Kabul, Qəznə, Məzari-Şərif, Beğlan, Bədəxşan və digər ərazilərdə yaşayan soydaşlarımızı Mərvi, Bayat, Qızılbaş, Şahsevən, Cəmşidi, Timuri, Səlcuqi, Əfşar, Qacar adı ilə tanıyırlar. Əfqanıstanda ən azından 2 milyona yaxın soydaşımızın böyük əksəriyyəti öz azəri-türk kimliklərini qoruyub saxlamış, hətta müəyyən hissəsi isə (mərvilər, əfşarlar, qızılbaşlar) öz ana dilində danışırlar. Bizim Əfqanıstanda yaşayan soydaşlarımızla söhbətlərimiz əsnasında bəlli oldu ki, hələ Əfqanıstanda Əşrəf Qəninin prezidentliyi dövründə belə Əfqanıstanda Azərbaycan əsilli əhali həmişə diskriminasiyaya məruz qalmış, bu topluma siyasi və yaxud mədəni birliklər, təşkilatlar yaratmağa icazə verilməmişdir. Yalnız rəsmi olaraq qızılbaşlar etnik qrup kimi tanınmış, digər soydaşlarımızın etnik mənsubiyyəti rəsmi olaraq tanınmamışdır. Əfqanıstanda Taliban hakimiyyəti iqtidara gələnə qədər qeyri-rəsmi olaraq burada soydaşlarımızın birləşdiyi icmalar fəaliyyət göstərmişdir. Əfqanıstan Bayat etnik birliyinin rəhbəri Əsədullah Sahab, Firudin Mahmudi, Qızılbaş icmasından olan Əhməd Rəşad Cahid, Nüsrətullah Mudasser, Mərvi icmasının nümayəndələri Fərid Şabanpur, Çolam Hidar Dost, doktor Nasir Əhməd Niyazi, Əziz Arslan Şabanpor, Əfşar icmasından Əli Sina Əfşar Əfqanıstanda yaşayan azərbaycanlıların öz etnik kimliklərini, adət-ənənələrini və dillərini qoruması uğrunda əllərindən gələni etmişlər [16].

İcma rəhbərlərinin bizə verdikləri məlumatlara görə, soydaşlarımız Əfqanıstanın orta məktəblərində əfqan dilində təhsil alırlar. Təhsil səviyyəsi qənaətbəxşdir. Oğlanlar qədər qızlar da təhsillidirlər. Hətta bir çox soydaşlarımız Türkiyə universitetlərində təhsil alıb Əfqanıstanda işləyirlər. Onlar gələcəkdə Azərbaycan universitetlərində təhsil alaraq, Azərbaycan dilini öyrənmək və Əfqanıstanda soydaşlarımıza öyrətmək arzusundadırlar.

Təəssüflər olsun ki, Taliban hakimiyyətə gəldikdən sonra qeyri-rəsmi icmalar belə tamamilə qadağan edilmiş, hətta bu icma rəhbərlərinin böyük əksəriyyəti mühacir edərək Almaniya, İraq, Fransa, Qətər və digər dövlətlərdə siyasi qaçqın statusu ilə məskunlaşmışdır.

Azərbaycan alimlərinin Herat səfəri yerli əhali, rəsmi şəxslər tərəfindən səmimiyyətlə və maraqla qarşılanmaqla yanaşı, elm adamlarının da diqqətindən kənarda qalmadı. Bunun nəticəsi idi ki, Kabul şəhərinə geri dönərkən Əfqanıstan Elmlər Akademiyasının prezidenti Abdul Zahir Şakibin şəxsi təşəbbüsü ilə Azərbaycan alimlərinin Elmlər Akademiyasının rəhbər heyətilə görüşü keçirildi. Əfqanıstan Mədəniyyət nazirinin də iştirak etdiyi görüşdə Azərbaycan – Əfqanıstan mədəni əlaqələri, elm, təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivləri, əlyazmaların və tarixi qaynaqların mübadiləsi, elmi kadrların hazırlanması məsələləri haqqında fikir mübadiləsi aparıldı [2, s.20-21].

Qeyd edək ki, bizim Əfqanıstana səfərimiz bu ölkə haqqında daha dolğun və gerçək məlumatlar əldə etmək imkanı yaratdı. Ümumi qənaətimiz bu oldu ki, dünyada təqdim və təsəvvür olunan Əfqanıstanla gerçək Əfqanıstan tamamilə başqadır. Ölkənin aparıcı şəhərləri olan Kabul və Herat şəhərlərində olarkən qarşımızda gerçək Əfqanıstanı – mədəniyyətini, elm və təhsilini qorumağa çalışan, adət-ənənələrinə hörmət edən, 40 ildir yadellilərə qarşı mübarizə aparan, iqtisadi durumunu ayaqda saxlamağı bacaran 40 milyona yaxın bir toplumu gördük. Zəngin təbii sərvətləri olan, geniş turizm imkanlarına malik, böyük ipək yolu vasitəsilə Şərqlə Qərbi birləşdirən bu diyarı siyasi və iqtisadi

inkişafdan saxlamaq və təbii sərvətlərini talamaq üçün bu ölkəyə uzun illər boyu terrorizm yuvası və "cahil məmləkət" damğası vurmaq gerçəklikdən çox siyasi və strateji xarakter daşımışdır.

**4. Dünya Qızılbaş Təşkilatı və Əfqanıstan qızılbaşları**

Hal-hazırda dünyanın bir çox ölkəsində qızılbaş irsinin davamçıları yaşayır və Qızılbaş irsini layiqli şəkildə təbliğ edirlər. Xüsusilə də Əfqanıstanda böyük toplum halında yaşayan Azərbaycan əsilli qızılbaşlar və onların xaricdə yaşayan nümayəndələri bu işdə olduqca fəaldırlar.

Qızılbaş nəslinin nümayəndəsi olan Babək Hüseynli tərəfindən müxtəlif ölkələrdə yaşayan qızılbaşların vahid mərkəzdə birləşməsi üçün yaratdığı "Dünya Qızılbaş Qlobal İrsi Şura Təşkilatı"nda xaricdə yaşayan Azərbaycan əsilli qızılbaşlar təmsil olunurlar. Onlar çox mühüm əhəmiyyətli xoşməramlı missiyanı üzərlərinə götürərək müxtəlif ölkələrdə yaşayan Qızılbaş nəslinin davamçılarını "Qizilbash Global Heritage Şura" adlı səhifə ilə feysbuk sosial şəbəkəsi üzərindən bir araya toplamışdırlar. Sosial şəbəkədəki bu səhifədə 30-dan artıq ölkədən minlərlə həmvətənimiz aktiv fəaliyyət göstərir, müxtəlif sahələrdə fikir və informasiya mübadiləsi aparırlar. Qrup üzvlərinin əksəriyyətini gənclər təşkil edir. Əcnəbi ölkədə doğulub oranın bir parçasına çevrilmiş və qloballaşma dövrünün reallıqlarını yaşayan bu gənclər indi soy-köklərinə bağlılıq göstərir, qızılbaş mahiyyətləri və Azərbaycan əsilli olmaları ilə qürur duyur və "Əsas məqsədimiz Azərbaycanı, dilimizi, tariximizi, zəngin qrup mədəniyyətimizi tanıtmaq, dünyanın hər yerində Azərbaycana bağlı insanların sayını artırmaqdır", – deyirlər [5, s. 4].

Azərbaycan Respublikasının müvafik qurumları Dünya Qızılbaş Qlobal İrsi Şura Təşkilatı ilə yaxından əməkdaşlıq edir. Bu məqsədlə 2023-cü ilin noyabr ayında Bakıda Ulu Öndər Heydər Əliyevin 100 illiyi çərçivəsində Azərbaycan Diasporuna Dəstək Fondu və "Qızılbaş" Qlobal İrsi Şurası Təşkilatının birgə dəstəyi ilə "Azərbaycanda qızılbaş irsi: tarixin izi ilə" mövzusunda beynəlxalq konfrans keçirilmiş, bu gün də bu istiqamətdə davamlı əməkdaşlıq həyata keçirilməkdədir [6].

Müasir dövrdə beynəlxalq müstəvidə Dünya Azərbaycanlılarının hüquqlarının və təhlükəsizliyinin yeganə təminatçısı Azərbaycan dövlətidir. Bu baxımdan Əfqanıstanda yaşayan 2 milyona yaxın Azərbaycan kökənli soydaşımızın hüquqlarının qorunmasında Azərbaycan Respublikasının rolu olduqca vacibdir.

Məlumdur ki, yüzilliklər boyu Əfqanıstan coğrafiyası Azərbaycan türklərinə məxsus Səfəvi və Əfşar imperiyalarının tərkibində ümumi tarixi-mədəni dəyərələrin tərkib hissəsi olmuş, tarixlər boyu bu bölgə türk etnik-mədəni irsinin daşıyıcısı rolunda çıxış etmişdir. Bu baxımdan Səfəvi dövlətinin siyasi varisi olan Azərbaycan Respublikasının Əfqanıstanla siyasi və iqtisadi əlaqələrinin qurulması və inkişafı zəruridir [3].

Xüsusilə vurğulamaq lazımdır ki, etnik kimliklərini qoruyaraq özlərini Azərbaycan əsilli hesab edən, lakin böyük əksəriyyətinin assimilyasiyaya məruz qaldığını nəzərə alaraq bu toplumun mədəni inkişafını təmin etmək, xüsusilə də dillərinin-azərbaycan türkcəsinin qorunması istiqamətində addımlar atmaq olduqca vacibdir.

## Ədəbiyyat

1. Azərbaycan tarixi. 7 cilddə, 3-cü cild. – Bakı: Elm, 2007.
2. Ağalarlı, M. Əfqanıstanın Qarabağlı Azərbaycanlıları. "525-ci qəzet", https://525.az/news/166641-efqanistanin-qarabagli-azerbaycanlilari-sefer [21.04.2021-ci il]
3. Ağalarlı, M. Azərbaycanın Əfqanıstanda söz haqqı. https://science.gov.az/az/news/open/17764 [19. 08.2021]
4. Афганистан: справочник. Институт востоковедения [Российская академия наук]. Издательская фирма "Восточная лит-ра" РАН, 2000.

5. Baxşəliyev, R. "İlham Əliyevin Zəfəri dünya qızılbaşlarını birləşdirən ən böyük gücdür". Azərbaycan qəzeti, 8 iyul, 2022.
6. Bakıda "Azərbaycanda Qızılbaş irsi: tarixin izi ilə" mövzusunda beynəlxalq konfrans işə başlayıb. Azərtac, https://azertag.az/xeber/bakida_azerbaycanda_qizilbas [27.11.2023-cü il]
7. Дебец, Г.Ф. Антропологические исследования в Афганистане //Советская этнография. М.: Институт этнографии им. Н. Н. Миклухо-Маклая, 1967, № 4.
8. Ethnic groups. http://www.afghanembassy.com.pl/eng/afganistan/grupy- [14 November, 2023]
9. Gültekin, İ. XVI əsr Azərbaycan şairi Məhəmməd Bayram xanın həyatı və yaradıcılığı. Avtoreferat. – Bakı: 2013
10. Information from the State Statistics Committee of Afghanistan [31.03. 2022]
11. Qarabağnamələr. I kitab. – Bakı: Şərq-Qərb, 2006
12. Qazilbash in Afganistan. https://joshuaproject.net/people_groups/14498 ]
13. Qorxmaz, A. Əfqanıstan azərbaycanlıları: Əfşarlar və Qızılbaşlar. https://modern.az/medeniyyet/302952/efqanistan-azerbaycanlilari-efsarlar [16 Avqust 2021]
14. Menderes, A. Avşar Turkmenleri. – Kayseri: Geçit Yayınları, 2004
15. The Panjab Chiefs. Historical and Biographical Notices of the Principal Families in the territories Under the Panjab Government. 1862. p.111-118
16. "Uzaq Əfqanıstandan gələn etnik sorağımız". Dosent Mübariz Ağalarlı ilə müsahibə. Xalq qəzeti, https://www.xalqqazeti.az/az/siyaset/182980-uzaq-efqanistandan-gelen-etnik-soragimiz [11.06.2024-cü il]